**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KURT VONNEQUTUN YARADICILIĞINDA AMERİKA GERÇƏKLİYİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Leyla Elşad qızı Qocayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, dosent<br>**Sevinc Saday qızı Zeynalova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Səkinəxanım Fazil qızı Vəliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Fəxriyyə Cavanşir qızı Rəhimova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının bazasında yaradılmış BFD 4.12 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, akademik<br>**Kamal Mehdi oğlu Abdullayev** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Nuranə Məcid qızı Nuriyeva** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi ədəbiyyat və mədəniyyət sahəsində də dünya mədəniyyətinə inteqrasiyaya böyük ehtiyac duyulmaqdadır. Elə bu səbəbdən Qərb ədəbiyyatı və eləcə də digər xalqların ədəbiyyatlarının öyrənilməsi ədəbiyyatlar arası əlaqələrin və inkişaf istiqamətlərinin müəyyənləşməsində müstəsna rol oynaya bilər.

Müasir dünyanın inkişafı müxtəlif xalqların qarşılıqlı ünsiyyət və əməkdaşlığına ehtiyac yaradır və bu səbəbdən mədəni və ədəbi əlaqələrin inkişafı günümüzün aktual məsələlərdən biri kimi əhəmiyyətini itirmir.

Xalqların ədəbi-mədəni əlaqələrinin inkişafı mədəniyyətlərarası münasibətlərin sürətlənməsinə və birgəmövcudluğuna şərait yaradır. Elə bu baxımdan dünya xalqlarının bir-birinin ədəbi nailiyyətlərindən bəhrələnməsi və yaxınlaşması dövrümüzün ən aktual və əhəmiyyətli problemlərindən birinə çevrilib.

Azərbaycan ədəbiyyatşünaslığında son illər dünya ədəbiyyatında baş verən prosesləri öyrənib, onun ən son nailiyyətlərinin dürüst informasiyasının toplanması və tədqiq olunması aktual problemlər sırasında yer alır. Bu baxımdan yaradıcılığı XX əsrin nəsrinə təsir edən və onu yeni müstəviyə çıxaran, ABŞ ədəbiyyatında yaranan yeni tendensiyaların aparıcı siması olan Kurt Vonnequt (Kurt Vonnegut, 1922-2007) yaradıcılığında Amerika gerçəkliyinin tədqiqi bu günün ədəbiyyatşünaslığı müstəvisində yeni görmə bucağından dəyərləndirmək imkanı yaradır.

K.Vonnequt yaradıcılığı Amerika gerçəkliyinin bədii əksinin təcəssümü baxımından unikal hadisədir. Bu onunla bağlıdır ki, keçən əsrin ortalarından yaradıcılığa başlayan K.Vonnequtun əsərlərində qaldırılan problemlər hələ də öz aktuallığını itirmir. Bütün bunlarla yanaşı onun əsərlərinin bədii aləmi dünyanın istənilən yerində baş verə biləcək hadisələrin təsviri də ola bilər. İnsanın ekzistensial istəkləri ilə reallıq arasındakı uçurumdan bəhs edən yazıçı insan kimdir, nə istəyir və nəyə nail olacaq kimi suallar qaldırır və onların həlli yollarını arayır.

Yazıçının erkən yaradıcılığından başlayan və ömrünün sonuna qədər davam edən əsərlərində qaldırdığı problemlər amerikan reallığı, onun cəmiyyətə və insana təsir qüvvəsi, bu gerçəkliyin gətirdiyi böhrandan çıxmaq yollarının axtarışıdır. Bu səbəbdən K.Vonnequt yaradıcılığı fərdi və ümumbəşəri problemlərin öyrənilməsi baxımdan öz əhəmiyyətini itirmir.

Tədqiqatın aktuallığını və əhəmiyyətini şərtləndirən amillərdən biri də yaradıcılığında insanlararası münasibətlərdə dialoqun yoxluğundan söz açan, kimlik problemini qaldıran yazıçı kimi təqdim edilməsidir. K.Vonnequt yaradıcılığını öyrənən Cerom Klinkoviçin "Vonnequt bizi cəmiyyətin xəstəliklərinə diqqət yetirməyə səsləyir. Onun satirası bizi ruh düşgünlüyünə deyil, əksinə inama və nikbinliyə səsləyir. Yazıçı bizim iradə və qüvvəmizi birləşdirib dünyanı daha yaxşıya dəyişə bilərik fikrinə yönəldir"[1] kimi dəyərləndirilməsini də nəzərdən qacırmamaq önəmlidir.

K.Vonnequtun əsərlərinin qloballaşan dünyanın gətirdiyi yeni-yeni problemləriylə sərf-nəzər edilməsi də dissertasiyanın aktuallığını şərtləndirən amillərdəndir. Müasir dünyada insanın mənəvi-əxlaqi dəyərlərə, humanizmə olan inamının itməsi yazıçını düşündürür və narahat edirdi. Bu səbəbdən o, insanlığın böyük fəlakətlər qarşısında olmasını həm bədii, həm də publisistik əsərlərində səsləndirir, düşünən insanı fəaliyyətsizlikdə, laqeydlikdə günahlandırırdı.

Müasir Amerikanın durumu, onun dünyanı idarə etmək iddiası, özünün və digər xalqların həyatında oynadığı rolu K.Vonnequtu narahat edirdi və bunu dəfələrlə öz müsahibələrində səsləndirirdi. Orta amerikalının yaşamaq və mövcud olmaq kimi əzəli-əbədi istəklərinin sosial, siyasi, iqtisadi problemlərin məngənəsində əzilib mənən yox olması, digər tərəfdən elm və texnologiyanın gətirdiyi inanılmaz mənəviyyatsızlıq və dəyərsizlik, ümumiyyətlə mənəvi-ruhani böhran, insanların yadlaşması və bu səbəbdən ünsiyyətin qırılması, əxlaqi dəyərlərdən imtinası kimi problemlər K.Vonnequt yaradıcılığında qırmızı xətlə keçir. Yazıçının yaradıcılığında qaldırılan bu kimi

---

[1] Klinkowitz J. Vonnegut in America. Delacorte Press. 1977, 205p.

problemlər çağdaş dövrümüzdə də öz aktuallığını itirməyib və elə bu səbəbdən onun yenidən öyrənilməsi əhəmiyyət kəsb edir.

K.Vonnequt yaradıcılığının ayrı-ayrı məsələləri haqqında müxtəlif vaxtlarda Böyük Britaniya, ABŞ, Kanada və Rusiyada araşdırmalar aparılmış, dərsliklər, monoqrafiya və məqalələr nəşr edilmişdir. C.Klinkoviç[2], D.Mors[3], L.R.Broer[4], K.Lemann-Haupt[5], M.Lids[6], E.Nay[7], P.Rid[8], U.Teylor[9], S.Farrel[10], H.V.Holl[11], U.R.Allen[12] və digər tədqiqatçılar K.Vonnequtun ədəbi irsinin təhlilini və şərhini etsələr də yazıçının yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ayrıca tədqiqat obyektinə çevrilməmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında müasir Amerika ədəbiyyatının problemləri ilə bağlı Q.Quliyevin "XX əsr Amerika ədəbiyyatşünaslığında aparıcı cərəyanlar", "Postmodernizm və bədii ədəbiyyat"[13], Y.Abdullayevanın "XX əsr ədəbiyyatında modernizm";

---

[2] Klinkowitz J. Vonnegut in America. Delacorte Press. 1977, 205p.

[3] Morse D. The Novels of Kurt Vonnegut: Imagining Being an American. Praeger. 2003, 232p.

[4] Broer L.K. Sanity plea: schizophrenia in the novels of Kurt Vonnegut. University Alabama Press. 1994. 264p.

[5] Lehmann-Haupt C. "Breakfast of Champions, Or Goodbye Blue Monday"//. The New York Times. 3May, 1973.

[6] Leeds M. The Vonnegut Encyclopedia: An Authorized Compendium. Greenwood. 1994.712p.

[7] Nye E.A. "Telling the Stories that Can't Be Told: Translating War in Hemingway, Vonnegut and O'Brien". Undergraduate Honors Theses. 2016.

[8] Reed P.J. Kurt Vonnegut, Jr. N.Y.: Thomas Y.Crowell Company. 1972. 222p.

[9] Taylor W. The Kings of Infinite Space and The Sirens of Titan. http://www.vonnegutreview.com/2013/06/the-sirens-of-titan.html

[10] Farrell S. Critical Companion to Kurt Vonnegut. A Literary Reference to His Life and Work. Facts on File. New York. 2008. 537p.

[11] Hall H.W. Science Fiction and Fantasy Reference Index, 1992-1995. Libraries Unlimited, Inc. Englewood. Colorado. 1997. 289p.

[12] Allen W. Understanding Kurt Vonnegut. University of South Carolina Press, 2009, 192p.

[13] Quliyev Q. XX əsr Amerika ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Bakı: Çaşıoğlu. 2011. 207 s.; Postmodernizm və bədii ədəbiyyat // İpək yolu. Bakı: Çaşıoğlu. 2010. № 02, 99-105s.

"Bədii ədəbiyyatda postmodernizm"[14], Q.Rüstəmovun "Gələcəyin taleyi"[15] adlı kitablarının olmasına baxmayaraq ayrıca K.Vonnequt yaradıcılığına dair heç bir əsərin çap olunmaması təəssüf doğuran faktlardandır.

**Tədqiqatın obyekti və predmeti.** XX əsr dünya ədəbi-bədii fikrində aparıcı mövqedə çıxış edən, humanitar fikir tarixində "qara yumor"un inkişaf istiqamətlərini müəyyən edən ədəbi-estetik yanaşmalar, bədii istiqamətlər və onların Amerika ədəbiyyatında inikası xüsusiyyətləri tədqiqatın obyektini təşkil edir. Amerika və eləcə də Qərb ədəbiyyatının müasir dönəminin önəmli nümayəndələrindən olan Kurt Vonnequt yaradıcılığında Amerika gerçəkliyi mövzusu dissertasiya işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Amerika ədəbiyyatında "qara yumor" janrında yazdığı əsərləri ilə tanınan Kurt Vonnequtun yaradıcılığı əsasında elmi-nəzəri ümumiləşdirmələr aparmaq, yazıçının əsərlərində amerikan gerçəkliyi mövzusunun ideya qaynaqlarını, ədəbi-bədii xüsusiyyətlərini müəyyənləşdirməkdir.

Bununla əlaqədar dissertasiyada aşağıdakı vəzifələr irəli sürülmüşdür.

– Müasir Amerika ədəbiyyatında amerikan gerçəkliyi mövzusunda yazılan əsərlərin elmi təhlilini aparmaq və problemin aparıcı mövqeyə keçməsinin tarixi şəraitini araşdırmaq;

– Amerika gerçəkliyinin ədəbi-bədii fikirdə inikası xüsusiyyətlərini müəyyən etmək və onun ədəbi-tənqidi əsaslarını təyin etmək;

– Amerika gerçəkliyini K.Vonnequt romanlarının narrativ strukturu kimi dəyərləndirmək;

– K.Vonnequt romanlarında "qara yumor" və parodiya üsullarını gerçəkliyin təsviri kimi təqdim etmək;

– "5 № li sallaqxana və ya uşaqların səlib yürüşü" romanını yaddaş və obyektiv gerçəkliyin ziddiyyətləri kontekstində araşdırmaq və təhlil etmək;

---

[14] Abdullayeva Y. XX əsr ədəbiyyatında modernizm. Bakı: Mütərcim, 2005. 107s.; Bədii ədəbiyyatda postmodernizm. Bakı: Mütərcim, 2007. 191s.

[15] Qismət. Gələcəyin taleyi. Bakı: Mütərcim, 2016. 334 s.

–“Titanın sirenaları” romanını absurd gerçəkliyin əksi kimi öyrənmək.

**Tədqiqat metodları.** Dissertasiyada ədəbiyyatşünaslıqda mövcud olan elmi-nəzəri fikirlərdən geniş şəkildə istifadə edilmişdir. Problemin tədqiqində aparılan təhlillər əsasən tarixi-müqayisəli, bioqrafik və eləcə də analitik metodlar əsasında aparılmışdır. Tədqiqat işində müasir ədəbiyyatşünaslığın təhlil metodlarına istinad etməklə yazıçının yaradıcılığında müəllif konsepsiyası irəli sürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

–Müasir Amerika ədəbiyyatında amerikan gerçəkliyi mövzusu ədəbiyyatşünaslığın problemləri dairəsində tarixi, sosial və ümummədəni kontekstdə öyrənmək zəruriyyətini yaradır;

–K.Vonnequtun yaradıcılığında Amerika gerçəkliyinin bədii əksi əsərlərinin aparıcı xəttini təşkil edir;

–“Qara yumor” və parodiya üsulları K.Vonnequt yaradıcılığının bədii-estetik mənşəyini, əsas ideya-məzmununu və problematikasını müəyyən edir;

–K.Vonnequt “5 № li sallaqxana və ya uşaqların səlib yürüşü” romanında yaddaş və obyektiv gerçəkliyin ziddiyyətləri kontekstində dövrünün vacib və aktual problemlərinə toxunur;

–K.Vonnequt “Titanın sirenaları” romanında absurd gerçəkliyi təsvir etməklə yeni müəllif konsepsiyasını təqdim edir.

**Tədqiqatın elmi yeniliyi.** Kurt Vonnequt yaradıcılığı Qərb ədəbiyyatşünaslığında ətraflı şəkildə öyrənilmiş, onun yaradıcılığı ilə bağlı elmi tədqiqat işləri, monoqrafiya və dərsliklər yazılmışdır. Lakin Azərbaycan ədəbiyyatşünaslığında K.Vonnequt haqqında nəyinki sistemli elmi araşdırmalara, eyni zamanda monoqrafik tədqiqat işlərinə də rast gəlinmir. Bu səbəbdən K.Vonnequtun yaradıcılığının təhlili və tədqiqi Azərbaycan ədəbiyyatşünaslığında və ədəbi bədii fikrində onun yazıçı mövqeyini hərtərəfli şəkildə açıqlamağa imkan verir.

K.Vonnequtun yaradıcılığının aparıcı xəttini təşkil edən Amerika gerçəkliyinin bədii əksi probleminin yeni metodoloji prinsiplərlə öyrənilməsi dissertasiya işinin elmi yeniliyi kimi dəyərləndirilə bilər.

Digər tərəfdən dissertasiya işində K.Vonnequtun “qara yumor” və parodiya üsullarından istifadəsi amerikan gerçəkliyinin təsvirində

narrativ vasitə kimi öyrənilməsi, yazıçının əsərlərindəki absurd gerçəkliyin təsvirinin müəllif konsepsiyası kimi öyrənilməsi də ədəbiyyatşünaslığımızda yeni yanaşma tərzidir. Dissertasiya işində ilk dəfə qaldırılan və nəzəri həllini tapan bu məsələlər tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən filologiya fakültəsi nəzdində tədris olunan "Dünya ədəbiyyatı", "Amerika ədəbiyyatı", "Xarici ölkələr ədəbiyyatı", "Amerikaşünaslıq" fənnlərində istifadə oluna bilər. Tədqiqat işindən Amerika ədəbiyyatına dair kurs və mühazirələrin araşdırılmasında, eləcə də seminar məşğələlərə hazırlıq zamanı köməkçi vasitə kimi istifadəsi də məqbuldur.

Dissertasiya işinin bir sıra elmi nəticə və qənaətləri Azərbaycan ədəbiyyatının oxşar mövzularının öyrənilməsində, problemin qoyuluşu ilə bağlı düzgün və hərtərəfli təsəvvürlərin formalaşmasında da öz rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatda irəli sürülən fikir və mülahizələrin nəticələri Beynəlxalq və Respublika konfranslarındakı məruzələrdə öz əksini tapmış, eləcə də respublikamızda və xarici ölkələrdə nəşr olunan elmi jurnallarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 6 səhifə, 9252 işarə, I fəsil – 35 səhifə, 66071 işarə, II fəsil – 33 səhifə, 61988 işarə, III fəsil – 36 səhifə, 69191 işarə, nəticə – 4 səhifə, 6156 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 213971 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

***Giriş***də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, elmi yeniliyi, habelə müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır,

eləcə də dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin ***"Müasir Amerika ədəbiyyatında amerikan gerçəkliyi mövzusunun genezisinə dair"*** adlanan I fəsli iki bölmədən ibarətdir. ***"Amerika ədəbiyyatında amerikan gerçəkliyi mövzusu və onun ədəbi-tənqidi əsasları"*** başlıqlı ilk bölmədə müasir Amerika ədəbiyyatında amerikan gerçəkliyi mövzusu ətraflı şəkildə araşdırılır, mövzu ilə bağlı əsərlər təhlilə çəkilir, bu mövzunun ədəbi tənqiddə yeri və mövqeyi öyrənilir.

Amerikalı tədqiqatçı Uorner Bertoff gerçəkliyinin mayasını əks etdirən müasir Amerika reallığını tanış və yerli dialektdə təsvir etməyi, "xüsusi direkt atmosferin yaradılması" kimi qeyd edir[16]. Elə bu səbəbdən yaradıcılığında gerçəkliyin təsvirini əsas prioritet hesab edən bir sıra yazıçılar müxtəlif yazı üsullarına üstünlük verir, bəziləri realizmin estetik prinsiplərini doğru hesab edirdilərsə, digərləri modernist təhkiyəni ən ideal forma kimi seçirdilər. Keçən əsrin ortalarından başlayaraq Amerika ədəbiyyatında postmodernist təhkiyə gerçəkliyin təsvirinə ən real namizəd kimi irəli çıxdı və bu sıraya "Bit cərəyanı" (The Beat Generation) nümayəndələri, "Qara yumor"(Black Humor) ədəbi məktəbi və postmodernizmin estetikasını qəbul edib yazan bir çox müəllifləri də əlavə etmək olar.

Allen Uolter "Ənənə və arzu" (Tradition and Dream) əsərinin "Narahat Qərb" (The Urgent West) bölümündə keçən əsrin amerikan romanından söz açaraq yazır ki, onun ən başlıca xüsusiyyəti həyatın gerçək üzünü təsvir etmək idi[17]. Bununla bağlı tədqiqatçı Amerika romanında qaldırılan sosial, siyasi, ictimai problemləri insan həyatına təsir edən vacib şərt kimi qeyd edir, sadə amerikalı ailələrindən başlamış cəmiyyətin bütün təbəqələrini göstərməyə çalışan yazarları Amerika reallığını təsvir edən sənatkar adlandırır. Amerikalı ədəbi tənqidçi Ceyn Benardet isə "Amerika realizmi" (American realism)

---

[16] Berthoff W. The Ferment of Realism: American Literature 1884-1919. Publisher: Cambridge University Press. 1981. -p.349.

[17] Allen W. Tradition and Dream. The English and American Novel from the Twenties to Our Time. Harmondsworth : Penguin books. 1986.-p.19.

əsərində yazır ki, gerçəkliyin əksi həyat salnaməsini doğru və dürüst təsvirdədir[18].

XX əsr realist ədəbiyyatın görkəmli nümayəndəsi, ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən Con Steynbekin romanları Amerika gerçəkliyinin təsvirində müstəsna rol oynayıb. Amerika reallığını onun qədər "təbii təsvir edən"[19] yazıçının varlığına az rast gəlinir deyən ədəbi tənqid də haqlıdır[20;21]. C.Steynbekin "Siçanlar və insanlar" (Of Mice and Men) romanı Kaliforniyadakı Böyük depressiya illərində yaşayan iki fəhlənin faciəvi həyatından bəhs edir. Əsər insanın ekzistensial istəkləri olan arzu, xəyal kimi hissələrinin günah və iztirab hissləri ilə əvəzlənməsi ilə bitən insan faciəsindən bəhs edir. Yazıçı bir tərəfdən öz torpaqlarından qovulan və adi yeməyə möhtac qalan zəhmətkeşlərin taleyini təsvir edirsə, digər tərəfdən daha çox iqtisadi fayda əldə etmək istəyən insanlığın faciəsini göstərir.

Realizm üslubunda yazan Con Apdayk öz müasirləri arasında kəskin satiradan istifadə edən və amerikan həyat tərzinin gerçək üzünü təsvir edən yazıçılar sırasındadır. Onun Amerika reallığını əks edən "Dovşan, qaç" (Rabbit, Run) romanı cəmiyyətin yaratdığı süni maneələrdə itib batan sıravi amerikalıdan bəhs edir. "Dovşan" ləqəbli sıravi amerikalı Harri Anqstrom "kiçik" insan obrazı kimi amerikan gerçəkliyinin əsil üzünü acıb göstərir. Harri Anqstromun şəxsi həyatı çoxsaylı həyat hadisələrinin burulğanında ilişib qalır və bu hadisələrin nəticəsi onun arzularının, ümidlərinin reallaşmaması ilə bitir. Yazıçı "Dovşan" obrazı ilə reallıqla üzləşən və onu heç vaxt adlaya bilməyən adi amerikalının insani faciəsinə gülür, həmçinin bu faciənin reallıqdan qaynaqlandığını vurğulayır.

Müasir Amerika ədəbiyyatının görkəmli nümayəndəsi yazıçı, dramaturq, şair Ceyms Bolduinin "Yerli oğulun qeydləri"( Notes of a Native Son) oçerklər toplusu Amerikan cəmiyyətinin iç üzünü bütün gerçəkliyi ilə göstərən, insanlar arasında yaranan irqi, dini, sinfi ayrı

---

[18] Benardete J. American realism. 1972. - p.47.

[19] Peter L. John Steinbeck: Nature and Myth. New York: Crowell, 1978. -p. 87.

[20] Benson J. The true adventures of John Steinbeck, writer: a biography. Viking Press. 1984. 248p.

[21] Peter L. John Steinbeck: Nature and Myth. New York: Crowell, 1978. 87 p

seçkiliyin fəsadlarını əks etdirən əsər kimi dəyərləndirilir. “Əgər Bil-Strit danışa bilsəydi” (If Beale Street Could Talk) romanı cəmiyyətin yaratdığı süni maneələri keçə bilməyən ailə faciəsinin timsalında bütünlükdə amerikalıların faciəsindən bəhs edir. Ölkədə hökm sürən məhkəmə özbaşınalığı, qara dərilərə qarşı irqi və sinfi ayrı-seçkilik bütün eybəcərliyi ilə əsərdə təsvir edilir[22].

Ralf Ellisonun “Görünməz adam” (Invisible Man) romanı Nyu Yorkda yaşayan və kimlik axtarışlarında olan adsız amerikalının düşüncələrinin əksi kimi Amerikanın istənilən yerində yaşayan insanı təcəssüm edir. Yazıçı insan və cəmiyyət problemini adsız qəhrəmanın dilindən səsləndirir və beləcə istənilən amerikalının həyata baxışları kimi təqdim edir. Əsər Amerika ədəbi tənqidində “yasaq mövzulara toxunan”[23] əsər kimi dəyərləndirilmişdir.

Müasir Amerika ədəbiyyatında xüsusi yeri olan yazıçılardan biri də Norman Meylerdir. Yazıçı “Çılpaq və ölü” (The Naked and the Dead) romanında Amerika hərbi qüvvələrində hökm sürən özbaşınalığı, hərc-mərcliyi bütün çılpaqlığı ilə təsvir edir və beləcə, hərbi hissələri amerikan cəmiyyətinin modeli kimi göstərməyə nail olur. Amerika arzularının real gerçəkliklə toqquşması N.Meyler romanlarının başlıca problemlərindəndir. Heç təsadüfi deyil ki, yazıçının “Amerikan arzuları” (An American Dream) adlı əsərinin baş qəhrəmanı müxtəlif mərhələlərdə Amerika ideallarını təcəssüm edir. Lakin sonda o, böyük maliyyənin qarşısında köməksiz olduğunu anlayır və başa düşür ki, yüksək zümrənin qarşısında Amerika demokratiyası tab gətirmir. Azadlığın və xoşbəxtliyin simvolu olan Amerika illüziyaları qəhrəmanın həyatında yoxa çıxır.

Lourens R.Samuel “Amerika həyat tərzi: mədəniyyət tarixi” (The American Way of Life: A Cultural History) əsərində Amerika həyat tərzindəki vacib məqamlara aydınlıq gətirməyə çalışır, Amerika mədəniyyətində əsas ideyalardan söz açır və göstərir ki, “Amerika

---

[22] Brown S.L. What James Baldwin's Writing Tells Us About Today//Gawker Review of books. 04/09/2015 http://review.gawker.com/what-james-baldwins-if-beale-street-could-talk-tells-us-1696489449

[23] Lewis R. Ellison’s Essays // The New York Review. January 28, 1965. https://www.nybooks.com/articles/1965/01/28/ellisons-essays/

həyat tərzi amerikan mifologiyası və ya milli eposuna xidmət edir"[24]. O, yazır: sistem tərəfindən dəstəklənən istehlakçı həyat tərzi Amerikanın ideoloji əsaslarıdır və bu hər bir şeyə tətbiq olunur[25].

"Amerika romanı və onun ənənəsi" (The American Novel and Its Tradition) əsərində amerikalı tədqiqatçı Riçard Çeyz isə yazır ki, ədəbiyyatımız düzgün və ətraflı şəkildə gerçəkliyi çatdırır və bu çox vaxt yaxşı düşünülmüş süjetdəki ağlabatan hadisələrin timsalında öz əskini tapır. Personajların real çətinlikləri sosial siniflər arasındakı qarşıdurma şəklində daha qabarıq görünür. Və bu tip romanlarda hadisələr poetik təsvirdə deyil, daha çox komik və satirik tona köklənir, sarkazm və istehza vasitəsilə reallığı göstərir və bir qayda olaraq psixologizmə meylli olur[26].

Müasir Amerika ədəbiyyatında yeni mövzulara imza atan yazıçılardan Cefri Yevgenides "Bakirə intiharlar" (The Virgin Suicides), Conatan Safran Foyer "Son dərəcə gurultulu və inanılmaz yaxın" (Extremely Loud and Incredibly Close) romanları artıq amerikan gerçəkliyini yeni baxış bucağından əks edən əsərlər kimi diqqəti çəkir.

Dana Klaud "Reallıq acıdır" (Reality Bites) kitabında Amerika siyasətini amerikan gerçəkliyinin həqiqi üzvü kimi öyrənir və belə qənaətə gəlir ki, sosial siyasət və ritorika məsələləri Amerikanın siyasi kursunu müəyyən edir. Amerikanın siyasi mədəni kursunda ritorikanın yer aldığını vurğulayan tədqiqatçı "ritorika və gerçəkliyin təsdiqi" bir arada addımlayır fikrini irəli sürür və yazır ki, ritorika faktların yoxlanılmasını sıxışdırıb aradan qaldırır və bu səbəbdən dərinə kök salan problemlər gözdən yayınır[27].

Conatan Franzenin romanları Amerika gerçəkliyini özündə ehtiva edən ən gözəl əsərlər sırasındadırlar. Onun ilk romanı olan "Düzəlişlər"də (The Corrections) xarici rifahın görüntüsü ilə daxili narahatlıqlar 90-cı illərin Amerikasının təsvirində daha aydın görünür.

---

[24] Samuel L.R. The American Way of Life: A Cultural History. Fairleigh Dickinson University Press. 2017.-p37.
[25] Yenə orada, -p.39.
[26] Chase R.The American Novel and Its Tradition. Johns Hopkins University Press, 1957. -p.37.
[27] Cloud D.L. Reality Bites. 2018. -p.106.

Yazıçının digər romanı olan “Azadlıq” (Freedom) isə müasir amerikalıların şəxsi azadlıqlarının reallaşması və onun uğrunda apardıqları mübarizəni əks etdirir. C.Franzenin romanındakı sosial-siyasi və iqtisadi reallıqlar yazıçının oxucuya çatdırmaq istədiyi Amerika gerçəklikləridir.

Toni Tanner “Heyrətin hökmranlığı: Amerika ədəbiyyatında sadəlövhlük və gerçəklik”(The Reign of Wonder: Naivety and Reality in American Literature) tədqiqat işində yazır ki, Amerika ədəbiyyatında gerçəkliyə və təcrübəyə münasibət daha çox sadəlövhlüyə heyranlıqla ifadə edilir, amma gərək təhlil və mühakimələr önə keçsin. Tədqiqatçı bunun səbəbini Amerika ədəbiyyatının özünəməxsusluğunda görür. Bu vacib məqamı əsas götürərək bir sıra yazıçıların yaradıcılığını təhlilə çəkir və onların əsərlərində reallıq anlayışının assimilyasiyaya uğradığını qeyd edir. Amma həmçinin bu mürəkkəb yanaşmanın arxasında xüsusi amerikan üslubunun olmasını da vurğulayır[28].

Keçən əsrin ortalarından başlayan və amerikan cəmiyyətini bütün gerçəkliyi ilə təsvir edən C.Steynbek, N.Meyler, C.Bolduin, C.Didion, R.Ellison, C.Hersi, C.Apdayk öz sələfləri M.Tven, C.London, T.Drayzer, E.Sinkler, F.Fitsceraldın yolunu davam edir, Amerikanın yeni düzənindən gələn yeni problemləri dövrünün əhatə dairəsində canlandırıdılar.

**“Amerika gerçəkliyinin ədəbi-bədii fikirdə inikası xüsusiyyətləri”** adlanan ikinci bölümdə qeyd edilir ki, Amerika gerçəkliyi mövzusu Amerika ədəbi-bədii fikrində özünəməxsus yerlərdən birini tutur. Keçən əsrin altmışıncı illəri Amerika ədəbi-mədəni həyatında “Bit cərəyanı” və bu cərəyanın aparıcı nümayəndələri Cek Keruak, Allen Qinzberq, Uilyam Berrouz cəmiyyətdə hökm sürən sosial və siyasi narazılığı həyat kredosu elan edib fərd və cəmiyyət qarşıdurmasından yaranan problemləri daha kəskin və naturalistcəsinə təsvir edirdilər.[29]

---

[28] Tanner T. The Reign of Wonder: Naivety and Reality in American Literature. Cambridge University Press. 1977. -p. 127.

[29] Morgan B. I Celebrate Myself: The Somewhat Private Life of Allen Ginsberg. Penguin, 2006. -35p.

Cek Keruak “Yolda” (On the Road) romanında amerikalıların rahatlığa vurğunluğunun, maddiyata hərisliyinin bir toplum kimi böhrana səbəb oduğunu göstərir. Arzu və istəklərin reallaşmamasından yararan mənəvi böhran o dövrün gənclərini qəbul edilmiş həyat tərzinə alternativ yollar axtarmağa vadar etdi. Əsərdəki yol səyahətləri də reallıqdan qaçışın yeganə vasitəsi kimi təqdim edilir.

Uilyam Berrouz “Çılpaq nahar” (Naked Lunch) romanı Bit nəslinin aparıcı əsərlərindən sayılır[30]. Əsəri təhlil edən Oliver Harris belə qənaətə gəlir ki, “çılpaq nahar donub qalmış an, saniyədir. Bu zaman hər kəs anlayır ki, istənilən çəngəlin ucundadır”[31]. Əsərin belə metaforik izahı U.Berrouzun dünyaya baxışları ilə izah oluna bilər. Yazıçı Amerikanı “qarabasmalar” adlandırır və deyirdi ki, onun daxili və xarici siyasətini idarə edənlər inanılmaz dərəcədə “axmaq və bədniyyətlidirlər”[32].

Amerika ədəbi prosesində sənədli bədii ədəbiyyatın yeni janr növlərindən danışılır, bədii əsərlə sənədli əsərlərin qarşılıqlı əlaqəsindən söhbət açılır. Amerika ədəbiyyatında sənədli janra xüsusi yer verilir və mövcud olduğu gündən bu günə qədər sənədli dəlilləri bədii bir şəkildə təsvir etməyə çalışırlar. Nəticədə sənədli və bədii ədəbiyyatın milli amerikan sintezi yaranmışdır.

Sənədli bədii əsərin reallığı təsvir etməyin ən uyğun yolu kimi müasir Amerika ədəbiyyatında Trumen Kapote, Tom Vulf, Hanter Stokton Tompsonun yaradıcılığında izlənilir[33]. Trumen Kapotenin “Soyuqqanlı qətl”(İn Cold Blood) romanı yeni jurnalistika sahəsində yazılan möhtəşəm nəsr əsəri kimi ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir[34]. De Bellis “Baxışlar və düzəlişlər: Trumen

---

[30] Murthy T. S. Wising up marks: the modern William Burroughs. University of California Press, 1997. -p.9.
[31] Harris Oliver C. G., MacFadyen I. Naked lunch. SIU Press, 2009. -p. 4.
[32] Burroughs W.S.: Interview https://sensitiveskinmagazine.com/-william-s-burroughs-interview/ ; Burroughs W.S. The Art of Fiction No. 36 Interviewed by Conrad Knickerbocker https://www.theparisreview.org/interviews/4424/the-art-of-fiction-no-36-william-s-burroughs
[33] Garson H. Truman Capote. Ungar Publishing. 1980. -p.21.
[34] Hollowell J. Fact and Fiction. The New Journalism and Non-fiction Novel. Chapel Hill: The University of North Carolina Press, 1977. -p.18.

Kapotenin "Soyuqqanlı qətl"i"[35] araşdırmasında yazır ki, "Trumen Kapote "Soyuqqanlı qətl"də öz düşüncələrini sosial-estetik dəyərlərin fonunda əsərə cəlb edir və beləcə müəllifin kodlaşmış fikriləri kimi göstərir"[36].

Sənədli bədii roman müəlliflərindən olan Tom Vulfa görə yazıçı sarsıntılar və inqilabi dəyişikliklər dövründə birmənalı şəkildə "dövrün katibi" olmalıdır[37].

Tom Vulfun sənədli bədii əsərləri sırasında qaradərilərlə ağdərilər arasındakı ziddiyyətləri əks edən "Radikal şik və zenit silahlarını necə qırmaq"( Radical Chick and Mau-Mauning the Flak Catchers), Amerika və Sovetlər birliyinin "soyuq müharibə" dövründə kosmos uğrunda yarışından bəhs edən "Şöhrətpərəstlik tonqalı" (The Bonfire of the Vanities), Amerika siyasətində mövcud olan yalan və hiylədən bəhs edən "Dolğun insan" (A Man in Full) romanları var. Bu əsərlərində yazıçı Amerikada hökm sürən reallığın bədii əksini sənədli faktlar əsasında qələmə almış, yeni sənədli bədii roman janrının formalaşmasına yol açmışdır.

Müasir amerikalının həyata baxışlarını, onun narahatlığını və gələcəyə olan şübhə dolu gözləntilərini yazıçı Cozef Hellerin (Joseph Heller) "Nə isə oldu" (Something Happened) romanı bütün çılpaqlığı ilə əks edir. Proqramlaşdırılmış həyat öz axarında davam edərkən orta amerikalı birdən natamamlığını, həyatda bir mövqe qazanmamasını və bütün bunlar azmış kimi sabaha inamsızlığını, qorxusunu dərk edir. Dünyada "nə isə oldu" və bundan sonra mövqesiz qalmaq mümkün deyil. Cəmiyyət və şəxsiyyət ilə baş verən dəyişikliklərin mahiyyətini açmaq istəyi onu tərk etmir.

Müasir Amerika ədəbiyyatında mövcud olan "qara yumor" absurd gerçəkliyi əks etdirmə üsullarından biri kimi ekzistensial problemlərdən başlayaraq sosial, siyasi, iqtisadi, məişət problemlərinə toxunan kinayə və istehza ilə deyilmiş gülüşün növüdür. "Qara

---

[35] De Bellis J. Visions and revisions: Truman Capote's "In Cold Blood" // Journal of modem literature. 1979. Vol. 7. № 3. 519-536p

[36] Yenə orada, -p.521.

[37] Weber R. The Literature of Fact: Literary Nonfiction in American Writing. Ohio: Ohio University Press. 1980. -p.25.

yumor" üslubunda yazan yazıçılar ətrafdakı reallığı şərh etməyin adekvat bir yolu kimi ədəbi yaradıcılığın imkanlarından mümkün qədər istifadə edirdilər. Bu həmçinin müəllifin öz dövrünə münasibəti ilə yanaşı gerçəkliyi, həqiqəti üzə çıxarmağın bir yolu idi. "Qara yumor" konsepsiyası müəyyən bir ideoloji-tematik və ritorik-poetik konstruksiyalar toplusunu əhatə edir. Amerika tənqidində bu anlayışın arxasında müəyyən dünyagörüşü, fikirlər birliyi möhkəmlənib və elə buna görə "qara yumor" ifadəsinə müəyyən ideoloji münasibətlərin məcmusu kimi baxılır. Bu sıraya ilk növbədə dünya nizamının absurdluğu ideyasına qarşı aktiv yaradıcı münasibətin olmasını da əlavə etmə olar. "Qara yumor" yazarlarının əsas problemi absurd dünyanın absurd gerçəkliyini təsvir etmək idi.

XX əsr Amerika postmodernist ədəbiyyatının görkəmli nümayəndəsi Con Bart yaradıcılığında "qara yumor" Amerika reallıqları istehza və qroteskin, satiranın ən kəskin təsvirində əksini tapıb[38]. Yazıçının "Üzən opera"( The Heating Opera) romanının qəhrəmanı həyatdan, onu əhatə edən reallıqdan bezmiş personajdır və bu səbəbdən yaşayıb əzab-əziyyətə qatlaşmaq, yoxsa intihar etmək sualını qaldırır. Çıxılmazlıq və çarəsizlik onu fəaliyyətsizliyə sürükləyir, yaşamağın mənasız olması fikrinə inandırır. C.Bartın digər "Yolun sonu"( The End of the Road) romanının qəhrəmanı Ceykob Horner kimlik böhranı yaşayır, həyatda müəyyən bir mövqe tutmaq istəyir, lakin hər yeni istək onda ümüdsizliklə nəticələnir.

Amerikan "qara yumor"u Tomas Pinçonun "Yer çəkmənin göy qurşağı" (The Gravity's Rainbow) romanında özünün əksini tapmış və ən parlaq nümunəsi kimi ədəbi tənqid tərəfindən dəyərləndirilmişdir[39]. Amerikan idarə sisteminin yeni texnologiyalar üçün yaratdığı sınaq meydançasında ağlasığmaz hadisələr baş verir və əsərin qəhrəmanları düşdükləri labirintlərdən çıxmağın yollarını arayırlar. Sınaq meydançasında həyata keçən lazımsız və mənasız yeni texnologiyaların

---

[38] Clavier B. John Barth and Postmodernism: Spatiality, Travel, Montage. Peter Lang, 2007. -p.55.

[39] Madsen D.L. American Exceptionalism. Univ. Press of Mississippi. 1998. 186p.; McDowell E. "Publishing: Pulitzer Controversies" // The New York Times. May 11, 1984.

qurbanına çevrilən hər bir personaj sonsuza qədər davam edən absurd gerçəkliyin qurbanı olduğunu anlayır. T.Pinçon romanında amerikalıların "sınaq meydançalarının" qurbanı olması ideyasını irəli sürür və gələcəkdə ola biləcək fəlakətlərin xəbərdarlığını edir.

"Qara yumor" üslubunda yazan yazıçılar sırasında C.Bart, T.Pinçon, C.Hellerlə yanaşı Kurt Vonnequt yaradıcılığı xüsusi yerə malikdir. Onun yaradıcılığı hələ sağlığında bir neçə istiqamətdə öyrənilmiş, əsərləri təhlil edilmiş, çoxsaylı monoqrafiya və elmi tədqiqat işləri yazılmışdır. Yazıçının yaradıcılığını öyrənən bütün araşdırmalar nəticə olaraq onun "qara yumor"dan istifadə etməsini səsləndirir. K.Vonnequtun "Pişik beşiyi" (Cat's Cradle) romanı ilk baxışdan yeni nə isə demir, gündəlik insan həyatı ilə bağlı bir epizoddan bəhs edir, amma eyni zamanda da olum və ölümün, xeyir və şərin daima biri-birini əvəz etməsini yada salır, onun əbədi olaraq davam etməsini eşitdirir. "5№li sallaqxana və ya uşaqların səlib yürüşü"( Slaughterhouse-Five, or The Children's Crusade) romanın qəhrəmanı Billi Piliqrim müharibənin gerçək üzünü görən yüzlərlə insanın uydurulmuş obrazıdır. Yazıçı müharibədən sonra yaşayan və yaşadığı cəmiyyətdə özünə yer tapa bilməyən, ailə və ətraf aləmdən "qırılan" insan faciəsini "qara yumor"un köməyi ilə təsvir edir. "Çempionlar üçün səhər yeməyi və ya əlvida, qara bazar ertəsi"(Breakfast for Champions, or Goodbye, Blue Monday) romanı da "qara yumor" üsulunda yazılmış əsərlər sırasındandır.

Dissertasiya işinin ***"Amerika gerçəkliyi Kurt Vonnequt romanlarının narrativ strukturukimi"*** adlanan ikinci fəsli iki bölmədən ibarətdir. Birinci bölmə "***Qara yumor" Kurt Vonnequt romanlarının üslubi-tematik priyomu kimi"***

Amerikan ədəbiyyatında mövcud olan yumor növlərindən biri də "qara yumor"dur. Buna bəzən "qara komediya" da deyilir. "Qara yumor" ("black" və ya bəzən də "dark" humor) üslubunda yazılan əsərlərdə bir qayda olaraq komik hadisələri açmaq üçün xüsusi üsul və vasitələr olur. Başqa sözlə, "qara yumor" bu hadisələrdə xüsusi bir vəziyyət alır və bu şəkildə nəyinki gülüşə səbəb olur, həmçinin də ideya-estetik mahiyyət daşıyır. Dünya düzəninin absurdluq ideyası cəmiyyətə, insanlara, yaşayış tərzinə sirayət edir. Elə bu səbəbdən

“qara yumor”dan istifadə edən yazıçının ədəbi-bədii dünyası absurd dünyanı canlandırır. Ədəbiyyatda “qara yumor”un Amerika variantı ictimaiyyətlə əlaqələrdə bürokratizmin artması və davamlı atom müharibəsi təhlükəsinə qarşı həyati terapiya kimi yozulur[40].

K.Vonnequt yaradıcılığında “qara yumor” bir qayda olaraq incəsənət gerçək reallığı təsvir edən gülüşün obyekti kimi çıxış edir. K.Vonnequt da öz sələfləri kimi dünyanı xaos kimi görürdü. Elə bu səbəbdən onun əsərlərində insan varlığının məqsədsizliyi, faydasızlığı əks olunur. İnsanın dəyərsiz olmasının səbəbi isə onu əhatə edən cəmiyyət və onun yazılmamış qaydalarıdır. K.Vonnequt dünya və insan qarşıdurmasını burlesk, qrotesk, istehza, fars, parodiya və “qara yumor”la ifadə edirdi. K.Vonnequtun yaradıcılığında “qara yumor” ölüm, milli kimlik, insanlararası münasibətlər, din və siyasət, hərbi və gender ayrı seçkiliyi, sosial həyat və s. problemlərə toxunur. Bütün hallarda yazıçı cəmiyyət və insan qarşıdurmasında yaranan və böyük görünən problemləri ələ salır, onlara gülür. İnsana ziyan gətirən, onun varlığına təhlükə yaradan bütün problemləri ciddi hesab edir və bunun ətrafında düşünməyə səsləyir.

K.Vonnequtun şəxsiyyətinə həmçinin onun alman mənşəli olması və ailəsinin erkən dağılması da təsir göstərmişdir. Yazıçı tənhalıqdan əziyyət çəkir və dərindən sevdiyi ölkədə özünü yad hiss edirdi. Özünün son kitabını “Ölkəsiz insan” (A Man Without a Country) adlandırması da təsadüfi deyil. ABŞ vətəndaşlarının pərakəndəliyinin nəticələrini şəxsən dadmış yazıçı bunu dövlətin problemi kimi dəyərləndirir, bütün bəlaların irqi ayrı-seçkilikdən doğan qəddarlıqda, nəvaziş və rəhimsizliyin olmamasında görürdü. Deyilənlərin kökünü isə mövcud mədəniyyətin aşağı səviyyəyə düşməsi ilə bağlayır, bunu isə Amerikada hökm sürən siyasətlə birbaşa əlaqəsini göstərirdi.

Amerika hökumətinin ölkədə “yalançı vətənpərvərlik” ruhunu tərbiyə etmək cəhdlərinə baxmayaraq yazıçı bu mövzunu “qara yumor”un sarkazm və istehza ilə tənqid edirdi. Belə əsərlərində K.Vonnequt Amerika hərbi sisteminin əksiklərindən daha çox ABŞ ordusunun dəhşətli və əsassız vəhşiliklərindən bəhs edir. Düzdür,

[40] Comic Relief: Humor in Contemporary American Literature. Urbana: Univ. of Illinois Press, 1999. -p.4-5.

“5 №li sallaqxana və ya uşaqların səlib yürüşü” romanı nəşr olunanda amerikan cəmiyyəti belə yanaşma və təsvir tərzinə tamamilə hazır deyildi. Xüsusilə, amerikan “vətənpərvərliyi” mövzusu qədər həssas problemdən yazmaq yazıçıya heç də asan olmadı. Lakin sonralar Billi Piliqrim haqqında əhvalat hər bir amerikalı gəncin yaxından tanış olduğu və gülüşlə qəbul etdiyi mövzuya çevrildi.

K.Vonnequtun “Zülmət ana” (Mother Night) romanı da dolayısı ilə müharibə mövzusuna yaxınlaşır, lakin yazıçı bu əsərində də müharibəni birbaşa açmır. Müharibə səngərdə döyüş kimi səslənsə də “Zülmət ana” romanında müharibə böyük güclərin öz təsirinə saldıqları bağlı kabinetlər və orada baş verən hadisələr kimi verilir. “Ölümdən betər talelər” toplusu açıq-aşkar göstərir ki, yazıçının müharibədə iştirak faciəvi hadisələrin unutmağın göstərirsə də, insanların bundan nəticə çıxarmaması onu daha çox məyus edir. O, müharibənin müasir həyatın ayrılmaz hissəsi olmasına öyrəşə bilmir, Hind-Çindəki qırğınlar, Amerika qoşunlarının İraqa soxulması onda ümidsizlik yaradır. “Ölkəsiz insan” esselər toplusunda o, istənilən müharibənin istər məğlub, istərsə də qalib ölkənin xalqına xoşbəxtlik gətirməməsi haqqında yazır.

“Qara yumor” özünəməxsus təhkiyə formasıdır. Bu formanın köməyi ilə K.Vonnequt da Amerika gerçəkliyini, amerikalıların yaşadığı mənəvi böhranı təsvir edir. Amma onu da qeyd etmək lazımdır ki, K.Vonnequt yaradıcılığında “qara yumor” nəyinki böhran vəziyyətinin ifadəsi, həmçinin də ondan çıxma yollarının fəal axtarışları ilə bağlıdır. Elə bu səbəbdən K.Vonnequt komik ifadə vasitələrinə müraciət edir, “qara yumor”u sarkazm və istehza, kinayə tərzində yazırdı.

***Dissertasiyanın II fəslinin “Kurt Vonnequt romanları reallığın parodiyası kimi”*** adlanan ikinci bölümdə yazıçının romanlarında qaldırılan cəmiyyət və insan qarşıdurmasından, insanlararası münasibətlərdən doğan gerçək problemlər parodiya və ironiyanın əhatəsində öyrənilir. K.Vonnequtun ilk romanı olan “Mexaniki piano” utopiya janrında yazılmasına baxmayaraq müasir cəmiyyətin parodiyası ilə əlamətdardır. Utopiyanın gətirdiyi real problemlər insanlara və o cümlədən cəmiyyətin bütün sahələrinə təsir edir. Yazıçı

məhz bu gerçək reallıqdan bəhs edir və bəşəriyyəti yaxalayan inanılmaz eybəcərlikdən söz açır.

Romandakı hadisələr yaxın gələcəkdə baş verir və oxucu insan həyatına daxil olana mexaniki maşınların nəyə qadir olduğunu görür. Romanın məziyyətləri haqqında yazan ədəbi tənqid onu "satirik, ironik"[41;42] adlandırırdı və qeyd etməliyik ki, bu əsərə verilən ən doğru qiymətdir. Həqiqətən yazıçı cəmiyyətin satirik parodiyasını edir, amerikalıların ola biləcək reallıqlarla qarşılaşacağına işarə edir. Yazıçı elmi fantastikanın və utopiyanın problem dairəsinə insan problemlərini də əlavə edərək "ideal cəmiyyətdə" yaşayan fərdin ağrı-acılarından bəhs edir. Yazıçı amerikan cəmiyyətinin özəlliklərini xüsusi müəllif istehzası ilə canlandırır və beləcə, ikiyə bölünmüş cəmiyyətin reallıqlarını göstərə bilir.

Belə insanların həyatını maşınlar idarə edir və hər kəs də maşınların ən "ağıllı" və ən ideal bilgi sahibi olduğunu əminliklə bilir. Bu cəmiyyətdə yaşayan hər kəs bilir ki, sistemdən kənara çıxmaq ölümlə nəticələnər. Elə bu səbəbdən onlara ayrılan maşın həyatını "yaşayır", "yaradır" və "mövcud" olurlar.

"Pişik beşiyi" romanında isə yazıçı elmi tərəqqinin nəyə qadir olmasından bəhs edir və insani keyfiyyətlərini itirmiş, ruhsuz elm adamının ixtirasının sonda faciə ilə bitməsindən bəhs edir. Yazıçı elmli insanın düşünmədən törədə biləcək fəlakətlərindən söz açır və insanları gözləyən faciələrin xəbərdarlığını edir. İkinci Dünya müharibəsindən sonra insanlar gerçəkliyin haqsız və absurd olduğunu anladılar. Dərin mənəvi böhran humanitar fikrin tarixində görünməmiş vüsət alır və bu problem dövrün yazıçıları kimi K.Vonnequtu da düşündürən suallar sırasında yer alır.

K.Vonnequt yaradıcılığını maraqlı edən vacib xüsusiyyət onun ən faciəvi və ən dəhşətli hadisələri yumorun köməyi ilə təsvir etməsidir. İnsan həyatının mürəkkəb və keçilməz məqamlarını yazıçı gülüşlə yola verir, sanki o, həyatın özü ilə oynayır. Gülüşün növləri olan qrotesk, satira və yumordan istifadə onun əsərlərində dərin fəlsəfi

---

[41] Leeds M. The Vonnegut Encyclopedia: An Authorized Compendium. Greenwood. 1994.712p.
[42] Reed P.J. Kurt Vonnegut, Jr. N.Y.: Thomas Y.Crowell Company. 1972. 222p.

məzmunu da adiləşdirir. Acı gülüş və istehza insan gözləntilərinin boş və mənasız olduğuna işarə edir.

Fərdiyyətçilik ailədə yaxın və etibarlı münasibətləri nəzərdə tutmur. Bu yaşlı və gənc nəsillər arasında onsuz da gərgin olan münasibətlərin kəskin münaqişə forması almasına gətirib çıxarır. Yazıçı bu problemin parodiyasını "Fars" (Slapstick) romanında ən kəskin şəkildə təsvir edir. Amerikalı tədqiqatçı Donald Mors belə hesab edir ki, K.Vonnequt Amerikanı və amerikalıların həyatını ən kəskin satirik boyalarda əks edən yazıçılardandır. Lakin insan faciələrinə səbəb olan, elə həmin insanlar tərəfindən törədilən bəd əməllərə baxmayaraq insana inanmaq lazımdır. D.Morsa görə yazıçı "Fars" romanında sona qədər həyatın təkrarsızlığına və insanda olan insanlığa inanmaq olar fikrini irəli sürür[43]. Əsərdə təsvir edilən plan əslində inkişaf etmiş cəmiyyətlərdə sosial təminat nömrələrinin bölüşməsini əks edir və yazıçı bu siyasəti ələ salır, Amerikada mövcud olan və hökumət tərəfindən yaradılan geniş ailə planı "qara yumor"un köməyi ilə ifşa olunur. Yazıçıya görə, süni çoxalma ideyası ilə böyüyən ailə modelləri heç vaxt insanlar üçün sosial dəstək ola bilməz. Lakin doktor Uilbur bunu dövlət planı kimi reallaşdırır, onu seçkiqabağı kampaniyasında sosial rifahın qurulması kimi təqdim edir. Amerikalı tədqiqatçı Lourens R. Broer "Ağıla dəvət: Kurt Vonnequt romanlarında şizofreniya" (Sanity plea: schizophrenia in the novels of Kurt Vonnegut) əsərində yazır ki, yazıçı "Fars" romanında amerikan həyat tərzini ilk baxışdan uydurma və ağlasığmaz hadisələrlə təsvir etsə də bunlar reallıqdır və biz həyatın hər anında belə hadisələrlə qarşılaşırıq[44].

Dissertasiyanın III fəsli ***"Kurt Vonnequt yaradıcılığında amerikan gerçəkliyinin bədii əksi"*** adlanır və iki bölmədən ibarətdir. ***"5 № li sallaqxana və ya uşaqların səlib yürüşü" romanı yaddaş və obyektiv gerçəkliyin ziddiyyətləri kontekstində"*** adlanan birinci bölmədə adı çəkilən romanda müharibə dəhşətləri, onun mənasızlığına

[43] Morse D. The Novels of Kurt Vonnegut: Imagining Being an American. Praeger. 2003. -p. 105.
[44] Broer L.K. Sanity plea: schizophrenia in the novels of Kurt Vonnegut. University Alabama Press. 1994. -p.259.

aydınlıq gətirilir. Yazıçı qrotesk və hiperbolalarla insan varlığında gizlənən bəşəri fəlakətlərin xəbərdarlığını edir. K.Vonnequt insanların bəşəriyyətin düçar olduğu reallığı doğru-düzgün anlayıb dərk edə bilmədiyini dəfələrlə dilə gətirmiş, insan övladının müharibələrə rəvac verən istəklərinin qorxulu sonluqla nəticələnəcəyini söyləmişdir. Məhz bu səbəbdən əsər düşünməyə vadar edir, tarixin həmin qorxulu vaxtını unutmamağa səsləyir. Digər tərəfdən yazıçı göstərməyə çalışır ki, insanlar öz talelərinin girdabında ilişib qalmış, oradan çıxış yolunu tapa bilmirlər. Əsərin baş qəhrəmanı Billi Pliqrim də öz taleyi ilə barışıb, lakin o, vəziyyətdən çıxış yolunu yaddaşında gizlənməkdə tapıb. Billi Pliqrimin yaddaşı gerçəklikdən qaçışın yeganə yoludur və o, bütün var qüvvəsi ilə gerçək həyata qayıtmaq istəmir. Billi Piliqim ilk baxışdan axmaq kimi görünür, oxucu onu əsgər rolunu oynayan antiqəhrəman kimi qəbul edir. Onun belə səfehliyinin arxasında yazıçı müharibənin özünün axmaqlığından, boş və mənasızlığından söz açır. Billi Piliqrimin axmaqlığının təsviri müharibədə iştirak edən, sonra isə öz həyatını mənasız və səfeh işlər üçün qurban verən insanların əksidir. Müəllif istehzasında həmçinin onu da görmək olar ki, Billi Piliqrimin müharibə “oyunları” ölüm və fəlakəti təcəssüm edir. Əsərin ciddi hadisə kimi təsvir edildiyi bütün səhifələrində müəllifin “belə-belə işlər..”[45] ifadəsi müharibənin mənasızlığına işarədir. Amma eyni zamanda da ondan qaçışın mümkünsüzlüyünün acı gerçəkliyidir. Müharibənin qaçılmazlığı, ölümün labüdlüyü oxucunu dəhşətə gətirir. Əsgər kimi özünü təqdim edən uşaqlar sadəcə həyat oyunlarının “piyadalarıdırlar”, onlar real gerçəklikdən qaça bilməyən, öz həyatlarını idarə edə bilməyən varlıqlar kimi absurdun real təsviridir. Ölüm və bombardmandan sonrakı həyatın təsviri isə reallığın həqiqi üzüdür. Əsəri yazıçının amerikan həqiqətlərinə sarkazmın gözü ilə baxan müəllif yanaşması kimi də qəbul etmək olar. Yazıçı Amerikada hökm sürən reallığı bütün istehzası ilə faş etməyə çalışır və göründüyü kimi ona nail ola bilir.

Roman Böyük Britaniya və Amerika qoşunları tərəfindən müharibənin son günləri Derezdenin bombalanmasının bədii təsviri

[45] Vonnegut K. Slaughterhouse-Five. Random House Publishing Group. 1999. p.23.

kimi müharibənin bütünlükdə canlandırılmasını əks etmir. Roman adi insanların adi həyatlarından bəhs edən, müharibə fəlakətlərini yaşayan və onun ağrılarından qurtula bilməyən "kiçik" insanlar haqqındadır. Yazıçı "kiçik" insan obrazında bəşəri fəlakətlərin ən ağrılısını göstərir və ondan heç bir kəsin sığortalanmamasına işarə edir.

Əsəri təhlil edən Fatma Divani məhz bu ideyanı vacib şərt kimi dəyərləndirərək yazır ki, Billi Piliqrim yaddaşına sığınaraq həyat travmalarından gizlənəndə dünya müharibələri və digər hadisələr öz reallığında davam edir, çünki hər şey tarixi reallığın dünyasındadır"[46]. K.Vonnequt müharibənin bütün dəhşətlərini ifşa edir, müharibə törədən insanların yalançı qəhrəmanlığına gülür. Əsərin qəhrəmanının adı da əsərdə alleqoriya kimi səslənir. Piliqrim adı ziyarət yolçusu, zəvvar kimi anlaşılsa da həyati bəlaların mənasızlığını əks etdirən absurd gerçəklik kimi mənalanır. Bu ziyarət yolçuluğunda başına gələcəkləri bilməyən insan yazıçıya görə absurd reallığın əyani göstəricisidir. Başqa sözlə, Cin Şinin də qeyd etdiyi kimi "reallıqla uydurma arasında qalan insan faciəsidir"[47]. Billi Piliqrim absurd personaj kimi həyatı heç bir məna ifadə etməyən, iradə azadlığı olmayan insanı təcəssüm edir. Onun müharibə haqqında düşüncələri güclü psixoloji zədələrdən xəbər verir.

Köməksiz və çarəsiz Billi Piliqrim özü üçün gerçək olmayan dünya yaradır və orada həyatın gerçək üzündən gizlənir. Drezdendə şahidi olduğu bombardmanlar onu ətrafda baş verənlərdən xəbərsiz edir. O, hadisələrin həqiqi üzünü görə bilmir, öz "mən"ini itirir, dünya ilə, insanlarla münasibətini kəsir. O, gerçəkliyi qəbul etmir, öz yaddaşında gizlənir. Amma onun yaddaşı obyektiv gerçəkliklə ziddiyyət təşkil edir və bu səbəbdən hamı tərəfindən normal qarşılanmır. Billinin yaddaşı keçmiş və gələcək zamanlarda qarışıb qalır və bəzən də bu zamanlar paralel şəkildə addımlayır. Ona görə hadisələrin nə əvvəli, nə də sonu bilinir. Bilinən yalnız gerçək

[46] Diwany F.K. So it goes: A postmodernist reading of Kurt Vonnegut's Slaughterhouse Five// International Journal of English and Literature. Vol. 5(4), 2014. -p.83.
[47] Shi J. On the Postmodern Narrative Techniques in Slaughterhouse-Five. //Theory and Practice in Language Studies, Vol. 9, No. 5, May 2019. -p.554.

hadisələrin yaddaşda oyanması, onun ağrılarının hələ də çəkilməməsidir. Elə bu səbəbdən Billi Piliqrimin yaddaşı ona əzab verən gerçəklik kimi görünür. Billinin həyatı adi insan həyatının qanunlarına riayət etmir. Onun üçün indiki zaman gözlənilmədən keçmişə dönə bilər və ya özünün uydurduğu zamana keçər. Billinin yaddaşı reallığı itirib və bu səbəbdən hərdən o, uzaq planetə səyahət edir, hərdən isə keçmişə qayıdır. Amma bütün hallarda Billi gerçəklikdən qaçır, təxəyyülünün gücündə gizlənir. Elə bu səbəbdən illər keçsə də müharibə dəhşətləri onun xəyalında real və virtual şəkildə peyda olur. Yaddaş Billi üçün real, real həyat isə uydurmadır: "Drezdenin dağıntıları onun təsəvvüründə narıncı xaç şəklində şaquli təsvir olunurdu və bütün sağ qalan insanlar bu məcburi keçiddən keçib digərindən çıxırdı"[48].

Yaddaş Billi Piliqrimin həm xilası, həm də qorunma mexanizmidir. Məhz onun vasitəsi ilə o, reallıqdan qaçıb gizlənə bilir. Yaddaş onun qalası, kimsənin girə bilmədiyi yer, kiçik dünyasıdır. Yaddaş vasitəsilə o zamanı, reallığı adlaya bilir və elə bu səbəbdən özünün ölüb dirilməsini dəfələrlə görür və hətta yenidən ölməsinin vaxtını da bilir: "Mən, Billi Piliqrim ölmüşdüm, öldüm və həmişə 13 fevral 1976-cı ildə öləcəm... Əgər siz etiraz etsəniz, əgər siz ölümü qorxulu nəsnə bilsəniz, demək siz danışdıqlarımın heç bir sözünü də anlamadınız. Billi bütün çıxışlarını bitirdiyi kimi mühazirəsini də bitirir: "Əlvida-salam, əlvida-salam!"[49].

***"Titanın sirenaları" romanında reallıqla uydurmanın vəhdəti absurd gerçəklik kimi"*** adlanan III fəslin ikinci bölümündə 1959-cu ildə nəşr olunan və elə həmin dövrdə ilin romanı kimi Hüqo mükafatına layiq görülən "Titanın sirenaları" (The Sirens of Titan) romanı təhlil olunur. Əsər yazıçının təxəyyüllə reallıq arasında qərar tutan personajının müəyyən zaman kəsiyində bir neçə planetlərə səyahətini və bu planetlərdə hökm sürən həyat və "həyatsızlığından" bəhs edir. Real, gerçək dünya ilə təxəyyül dünyaları arasındakı mübarizə müəllifin gerçəkliyin mümkün əksi kimi nəzərdə tutulur. Bu

---

[48] Vonnegut K. Slaughterhouse-Five. Random House Publishing Group. 1999. p.89.
[49] Yenə orada, p.287.

səbəbdən real dünya insanın arzuladığı və xəyal etdiyi dünyadırsa, uydurma dünya insanın qarabasmaları şəklində canlanır.

Uydurma dünya bütün absurdluğu ilə canlanır və bu şəkildə bəşəriyyəti gözləyən fəlakətlərin xəbərdarlığı kimi də izah edilə bilər. Tralfamador adlı planetin sakinləri robotlardır. Onlar ideal mexaniki cəmiyyət qanunlarını tətbiq edərək yaşayır, digər planetlərə gedib-gələ bilirlər.

Real və uydurma dünyalar qarşılıqlı əlaqədədirlər və bu əlaqənin nəticəsi kimi əsərin qəhrəmanı Mars planetinə yol aça bilir. Hadisələrin cərəyan etdiyi yer isə Saturn planetinin peyki olan Titanda baş verir. Bura qəhrəmanın yaşamaq üçün seçdiyi məkandır. Məhz Titanda o, planlaşdırdığı müharibələrdən uzaqda yaşamağı arzulayır. Lakin onun arzuları yerinə yetmir. Amerikalı tədqiqatçı Piter C.Cons qeyd edir ki, "Titanın serenaları"nda yazıçı dünyada heç nəyi dəyişmək mümkün deyil ideyasını irəli sürur. Onu yalnız müharibələrlə dəyişmək olar, bunu da o, mənasız hesab edir, çünki bəşəriyyət artıq pisliklərə bulaşıb. Ona görə Vonnequt bəşəri axmaqlığın və insan varlığının puçluğunun kədərini daşıyır. Bu isə ona olanları ciddiyə almamağa sövq edir"[50].

Cerom Klinkoviç və Con Somerin birgə tərtib etdikləri "Vonnequtun bəyanatı" əsərində oxuyuruq ki, "Titanın sirenaları"nda daima qarşılaşdığımız mövzu və motivlərdən, personaj və qəhrəman tiplərindən istifadə edilsə də əslində daha vacib və aktual mətləblərdən söz açır. Bu mövcud Amerikan sistemində hökm sürən reallıqdır[51]. Qeyd olunan fikirlərin davamı kimi onu demək olar ki, yazıçı həqiqətən sadə bir mövzunu götürüb işləsə də daha mürəkkəb mətləblərdən bəhs edir. İnsanların gündəlik həyatlarında rastlaşdıqları və bəzən də ciddiyə almadıqları hadisələrin arxasında onlarla faciələr yatır.

Yazıçı gerçəkliyi əks etdirmək üçün mümkün bədii priyomlardan istifadə edir. Bu əsərin qəhrəmanlarından olan Malaxinin qazanc dalınca Rumfordun qurduğu "tora" düşdüyü andan robot Salo ilə dostluğuna qədər məsafəni əks edən həyat situsiyalarından başlayan və

[50] Jones P.G. War and the Novelist. Appraising the American War Novel. Columbia-London. 1976. -p.248.

[51] The Vonnegut Statement. eds. Jerome Klinkowitz and John Somer. New York: Dell. 1973. -p.31.

ölümü ilə nəticələn son ana qədər davam edir. Amma təsvir edilənlərin hər biri yazıçının Amerikada hökm sürən siyasi sistemin tənqidinə hədəflənmişdir. Elə bununla bağlı Rumfold və onun yaratdığı ideologiya yazıçının yaşadığı dünyanın bir parçasıdır fikrini irəli sürə bilərik. Fərq ondadır ki, bu dünya əsərin bədii aləmidir və bu səbəbdən oxucu onu müəllif fantaziyası və uydurması kimi başa düşür. Həqiqət isə yazıçının çatdırmaq istədiyi fikirlərdədir. Məhz bu üzdən yazıçının yaratdığı bədii dünya real dünyanın karikaturası, onun eybəcər şəklidir.

Yazıçı Amerika cəmiyyətində Rumfordlar mövcud olduğu şəraitdə mənəvi və etik dəyərlərin itməsi, insani keyfiyyətlərin yox olması ilə nəticələnən reallıqdan bəhs edir.

Rumford reallığın ona verdiyi hakimiyyətdən istifadə edir, yaşadığı insan həyatına ayrılan zaman kəsiyində Tanrı olmağı arzulayır. Onun arzuları robotlar, yaddaşını itirmiş insanlar tərəfindən reallaşdırılanda gülünc və ləyaqətsiz görünür. Onun robot kimi insani hisslərdən məhrum olması, robot Salonun isə insan kimi dostu Malaxi ilə davranması bir daha yazıçının acı istehzasından xəbər verir. Məlum olandakı illərlə gizlətdiyi sirrin heç bir mənası yoxdur, ümumiyyətlə onun özü heç bir dəyərə malik deyil, bu acı gerçəkliyi başa düşən robot Salo özünü sökür. Sanki bu şəkildə etiraz edir.

Tənqidçi P.Ridin K.Vonnequtla bağlı araşdırmalarını əsas götürərək qeyd etmək olar ki, yazıçı əsərində dünyanın maşınlarla dolması və bu maşınların istənilən həyat situasiyalarında iştirakından söz açır. Bu sırada müəyyən funksiyaları yerinə yetirmək üçün hazırlanan Salo da, Marsda başqalarının məqsədini yerinə yetirmək üçün başındakı antenaları idarə edən kvazi maşın da olar bilər. Dini ideyaları idarə edən metaforik maşınlar da bu sıraya aiddirlər. Bütün hallarda yazıçı dünyanın həqiqi üzünü absurd gerçəklik kimi təqdim edir, bu vəsilə ilə oxucunu düşünməyə səsləyir.

Tədqiqatın yekunları “Nəticə” də ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**

1. Kurt Vonnequt ədəbi irsində çağdaş Amerikanın təsviri // BSU "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" jurnalı №1, 2018, səh.127-129
2. Kurt Vonnequt postmodernizmin bir nümayəndəsi kimi // Azərbaycanda Xarici Dillər jurnalı №3 (44), 2019, səh.34-38
3. Kurt Vonnequt yaradıcılığının janr spesifikası Azərbaycanda Xarici Dillər jurnalı №4 (45), 2019, səh.102-105
4. Kurt Vonnequtun "Sallaqxana N-5" əsərində qara yumor // BSU "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" jurnalı №1,2019, səh.197-199
5. Kurt Vonnequtun "Pişik beşiyi" əsərinin ideya-məzmun xüsusiyyətləri // BDU "Dil və ədəbiyyat" jurnalı №2 (112), 2019, səh.77-79
6. Kurt Vonnequtun ədəbi irsində insan və müharibə mövzusu // AzMİU "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda II beynəlxalq konfrans, 2019, səh.186-190
7. Ədəbiyyatda qara yumor anlayışı (Kurt Vonnequt ədəbi irsi əsasında)// AdMİU "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Rəqəmsal innovativ-mədəni xidmətləri innovativ idarəetmə sistemində" mövzusunda I respublika elmi-praktik konfransı, 2020, səh.132-134
8. Литературный анализ творчества Курта Воннегута // «ХАБАРШЫ» journal Vestnik KazNU, №2, 2020,
9. Публицистические особенности творчества Курта Воннегута // Labyrinths of reality. Collection of scientifical works based on materials of the "VII International scientific and practical conference". Issue 2/7., 2020, Page 31-35
10. Kurt Vonnequtun "Çempionlar üçün səhər yeməyi" əsərinin estetik proqramı // Rəsul Rzanın anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Modern science and technology innovations" adlı V beynəlxalq elmi-praktik konfrans, İsveçrə, 2020, səh.82-85

11. İnsan və cəmiyyətin qara yumor vasitəsilə əksi // Seyid Əzim Şirvaninin anadan olmasının 185 illik yubileyinə həsr olunmuş VII Beynəlxalq elmi-praktik konfrans, Qars, 2020,səh.32-36
12. Müasir ABŞ nəsrində Vonnequtun rolu // Üzeyir Hacıbəyovun anadan olmasının 135 illik yubileyinə həsr olunmuş "Tarixdə şəxsiyyətin rolu" adlı VIII beynəlxalq elmi-praktik konfrans, Türkiyə, 2020, səh. 82-85
13. "Titanın sirenləri" əsərində elmi-fantastik ünsürlərin təsviri // Həbibinin anadan olmasının 550 illik yubileyinə həsr edilmiş IX Beynəlxalq Elmi Simpozium, Makedoniya, 2020, səh.93-96
14. "Ədəbiyyatda elmi fantastika janrının özünəməxsusluğu"// Grigol Robakidze University, 2021, Georgia
15. "Kurt Vonnequt əsərlərində müharibə motivi"// Gənc tədqiqatçıların IV Respublika elmi-praktik konfransı, Azərbaycan Universiteti, 2021
16. Grotesque consciousness in fiction of the late XX-early XXI centuries // "Science and education: preserving the past, creating the future" XIII Uluslararası sempozyum, 2021,Qars

Dissertasiyanın müdafiəsi 14 oktyabr 2022-ci il tarixində saat 12^00^ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının bazasında yaradılmış BFD 4.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.09.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 44 846 işarə

Tiraj: 100